# Türkiyə-Azərbaycan əlaqələrində Heydər Əliyevin mirası

Türkiyənin İstanbul şəhərində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM), Azərbaycanın İstanbuldakı baş konsulluğu, İbn Haldun Universiteti və Heydər Əliyev Avrasiya Çalışmaları Uyğulama və Araşdırma Mərkəzinin (HACE) təşkilatçılığı ilə "Türkiyə-Azərbaycan əlaqələrində Heydər Əliyevin mirası" adlı konfrans keçirilib.

Bu barədə AZƏRTAC-a BMTM-in Mətbuat xidmətindən məlumat verilib.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev 2023-cü ilin "Heydər Əliyev İli" elan olunası ilə əlaqədar rəhbərlik etdiyi qurumun həm Azərbaycanda, həm də ölkəmizdən kənarda konfranslar təşkil etdiyini bildirib. Qeyd olunub ki, bu tədbirlərin keçirilməsində əsas məqsəd o dövrdə baş vermiş siyasi iqtisadi prosesləri, Heydər Əliyevin yürütdüyü siyasəti, o cümlədən Azərbaycan-Türkiyə əlaqələrini akademik cəhətdən təhlil etmək, universitetlərə, tələbələrə çatdırmaqdır. Fərid Şəfiyev deyib ki, müstəqilliyinin ilk illərində Azərbaycan çətin iqtisadi və siyasi proseslərdən keçmiş, ərazilərinin bir qismi Ermənistan tərəfdən işğal olunmuşdu. 2020-ci ildə Azərbaycan ərazilərini işğaldan azad edərkən Türkiyənin mənəvi dəstəyini hiss edib. Azərbaycan öz dövlətçiliyini gücləndirir, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı möhkəmlənir. Bütün bunların əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndərin həyata keçirdiyi enerji layihələrinin, iqtisadi islahatların təqribən 30 ildən sonra nəticələrini gördükcə onun nə qədər uzaqgörən siyasi xadim olduğunu müşahidə edirik.

Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva Ulu Öndər Heydər Əliyevin öz həyatını xalqımızın rifahının yaxşılaşmasına, güclü Azərbaycan dövlətinin qurulmasına həsr etdiyini və xalqın da buna qarşılıq verdiyini deyib. Diqqətə çatdırılıb ki, Heydər Əliyev hakimiyyətinin ilk illərindən, həmçinin Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına önəm verib və bu, xarici siyasətin əsas istiqamətlərindən biri olub. Ortaq dilimiz, dinimiz, tariximiz bunlar üçün yaxşı zəmin təşkil edib. Bu gün Azərbaycan və Türkiyə təkcə öz ölkələri üçün deyil, bölgədə sülhə və əmin-amanlığa xidmət edən layihələr gerçəkləşdirir. Heydər Əliyevin hər zaman dediyi kimi, Azərbaycan və Türkiyə beynəlxalq məsələlərdə hər zaman birlikdədir, bu siyasət əlaqələrimizin təməl prinsiplərindən biridir.

Konfransda İbn Haldun Universitetinin rektoru Atilla Arkan, Universitetin Qəyyumlar Şurasının sədri İrfan Gündüz, Azərbaycan Parlamentinin üzvü Ramil Həsən, TBMM Türkiyə-Azərbaycan Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, Türkiyə Prezident Administrasiyası Xarici Siyasət və Təhlükəsizlik Şurasının üzvü, Altınbaş Universitetinin rektoru Çağrı Erhan, "SOCAR Türkiyə"nin Kommunikasiya və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Mikayıl Yusifov, BMTM-in şöbə müdiri Cavid Vəliyev, aparıcı məsləhətçi Mətin Məmmədli və digər Türkiyə və Azərbaycandan olan professor və müəllimlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında Heydər Əliyevin yürütdüyü siyasətin roluna və əlaqələrin gələcəyinə dair müzakirələr aparıblar.

Azərbaycan.- 2023.- 27 aprel.- S.6.